AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

MÜTDA
MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

birbank

RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

YARIMFİNAL MƏRHƏLƏSİ

Ad ______________________ Soyad ______________________

# Aşağı yaş qrupu
# 8 və 9-cu sinif
# TARİX
## Azərbaycan bölməsi

- İmtahan müddəti — **120 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- 1-7-ci suallar **4**, 8-13-cü suallar **5**, 14-20-ci suallar **6** balla qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Yarımfinal mərhələsinin nəticələrini **11.03.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

Aşağı yaş qrupu

**1. Qobustanda tapılmış qayaüstü təsvirlərə aid xüsusiyyətləri müəyyən edin.**

1. Mezolit dövründə incəsənətin inkişaf etdiyini göstərir
2. Qədim dövrlərdə əhalinin təbəqələşməsi təsvirlərdə aydın görünür
3. Azərbaycan tayfalarının su yolu ilə qonşu ərazilərlə ticarət apardığını sübut edir
4. Qobustanın ilkin şəhər tipli yaşayış məskənlərindən olması meydana çıxır

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**2. Sasani hökmdarı Firuzun hakimiyyəti dövründə baş vermişdir:**

1. Albaniya dövləti ilə münasibətlərin kəskinləşməsi
2. Ağ Hun dövləti ilə müharibə aparılması
3. I Göytürk dövləti ilə ittifaq qurulması
4. Mani təliminin dövlət dini elan edilməsi

A) 2, 3
B) 1, 2
C) 3, 4
D) 1, 3
E) 2, 4

**3. Osmanlı dövlətində XVII əsrin 20-ci illərində baş verən daxili çəkişmələr nəticəsində:**

A) Rusiya ilə Xəzəryanı bölgələr uğrunda aparılan mübarizə uğursuzluqla nəticələndi
B) Şah I Abbas osmanlıları Hörmüz limanından qovdu
C) Səfəvilər bütün İraq ərazisini yenidən tabe etdilər
D) Vyana üzərinə edilən hücumlar nəticəsiz qaldı
E) Osmanlı qoşunları Azərbaycan torpaqlarını tərk etdilər

**4. 1959-cu ildə Azərbaycan SSR-də baş vermişdir:**

A) Hərbi kommunizm siyasətinin tətbiq olunması
B) Konstitusiyaya Azərbaycan dilinin dövlət dili olması ilə bağlı maddə əlavə olunması
C) Kollektivləşdirmə tədbirlərinin həyata keçirilməsi
D) Kənd əhalisinə pasportların verilməsi
E) İlk dəfə dənizdə neft mədən estakadalarının tikilməsi

**5. Daha sonra baş vermişdir:**

A) Rusiya Federasiyasının Gürcüstana ordu yeritməsi
B) ABŞ-ın İraqa qoşun yeritməsi
C) ÇXR ordusunun Tibeti işğal etməsi
D) İsrailin Qəzza bölgəsi və Sinay yarımadasını ələ keçirməsi
E) Rusiyanın Ukrayna respublikası ilə müharibəyə başlaması

**6. 1953-cü ildə İranda dövlət çevrilişinə kömək etmişdir:**




A) 1
B) 2
C) 3
D) 4
E) 5

**7. Solon islahatlarına aiddir:**

A) Taxıl və digər zəruri ərzaq məhsullarının ixracına qoyulan qadağa ləğv edildi

B) Strateqlər xalq yığıncağı tərəfindən seçildi

C) Yoxsul vətəndaşlara dövlət vəzifələrinə seçilmək hüququ verildi

D) Xalq yığıncağı ali hakimiyyət orqanına çevrildi

E) Əmlakından asılı olmayaraq bütün vətəndaşlar xalq yığıncağında iştirak edə bilərdi

**8. Göstərilənlərin aid olduğu şəhərləri müvafiq olaraq müəyyən edin.**

a. XII əsrin I yarısında paytaxt şəhərə çevrilməklə özünün çiçəklənmə dövrünü yaşayırdı

b. XI əsrin ortalarında Şəddadi hökmdarı tərəfindən müdafiəsini möhkəmləndirmək üçün tədbirlər görülmüşdü

c. X əsrin sonlarında paytaxt şəhər olması daha sürətlə inkişafına təsir göstərdi




A) 1, 3, 4
B) 2, 4, 5
C) 1, 2, 3
D) 3, 4, 5
E) 1, 2, 5

**9. AXC nümayəndə heyətinin V.Vilsona təqdim etdiyi memorandumda öz əksini tapmışdı:**

1. Ermənistanla ərazi mübahisələrinin həllində ABŞ-ın vasitəçi kimi iştirak etməsi
2. Sovet Rusiyasının hücumuna qarşı ABŞ-dan kömək tələbi
3. Azərbaycanın müstəqilliyinin tanınması
4. Azərbaycanın Millətlər Cəmiyyətinə üzv qəbul olunması

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**10. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.**




a. Qarabağ və Şəki xanlıqları Rusiyanın tabeliyinə keçirdi

b. İmperator I Aleksandrın hakimiyyəti dövründə imzalanmışdı

c. İbrahimxəlil xan və Səlim xan Rusiya hakimiyyətini qəbul etdi

d. Qacarlar dövlətində rus tacirləri gömrük rüsumundan azad olunurdu

e. İmzalanmasından sonra Cənubi Azərbaycanda bəzi xanlıqlar ləğv olundu

A) 1-a; 2-b,c; 3-d,e
B) 1-c; 2-d; 3-a,b
C) 1-d; 2-a,e; 3-b,c
D) 1-a; 2-d; 3-b,c
E) 1-b,d; 2-c,e; 3-a

**11. Hadisə-nəticə əlaqəsini müəyyən edin.**

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | Tovuz döyüşləri-nin baş verməsi | Mübariz İbrahimovun düşmənin çoxsaylı əsgər və zabiti məhv et-məsi |
| B) | Lokal antiterror əməliyyatının keçirilməsi | “Qarabağın mücrüsü” adlandırılan plandan istifadə edilməsi |
| C) | “Qisas” adlı anti-terror əməliy-yatının həyata keçirilməsi | Qondarma “Qarabağ problemi”nin birdəfə-lik həll olunması |
| D) | Hadrutun işğaldan azad edilməsi | Ordumuzun Laçına hücumu üçün əlverişli şəraitin yaranması |
| E) | Cəbrayıl şəhəri və bəzi kəndlərin işğaldan azad olunması | Azərbaycan-İran sərhədinin böyük hissəsinə dövlət nəzarətinin bərpa olunması |

**12. XVII əsrin sonlarında Reç-Pospolitanın Rusiyaya bəzi məsələlərdə güzəştə getməkdə məqsədi:**

A) Rusiyanı Osmanlıya qarşı qurulmuş ittifaqa cəlb etmək

B) Rusiyanın Baltik dənizinə çıxmasının qarşısını almaq

C) Ukrayna və Belorusiyada kəndli üsyanlarının qarşısını almaq

D) Şimal müharibəsinin nəticələrindən faydalanmaq

E) Qara dənizdə donanma saxlamaq hüququ əldə etmək

**13. Çar I Nikolayın hakimiyyəti dövrü üçün səciyyəvi *deyil*:**

A) Rusiyanın Cənubi Qafqazın işğalını başa çatdırması

B) Osmanlı dövlətinə qarşı işğalçı siyasət yürüdülməsi

C) Fransa və İngiltərəyə qarşı müharibə aparması

D) Şeyx Şamilin əsir alınması

E) Dekabristlər üsyanının yatırılması

**14. Almaniyada nasistlərin hakimiyyətə gəldikdən sonra daxili siyasətdə həyata keçirdiyi tədbirlərə aid *deyil*:**

A) Ölkənin Millətlər Cəmiyyətindən çıxması

B) Partiya və təşkilatların fəaliyyətinin qadağan edilməsi

C) Yəhudilərə qarşı təqiblərin həyata keçirilməsi

D) Siyasi rəqiblərinə qarşı terror və repressiyaların həyata keçirilməsi

E) Prezident idarəsinin ləğv edilməsi

**15. AXC-nin hökumət kabinetlərinin fəaliyyət göstərdiyi şəhərlərə müvafiq olaraq uyğun gələn hadisələri seçin.**




a. İrəvan şəhərinin Ermənistana verilməsi

b. Məktəblərin milliləşdirilməsi

c. Müəssislər Məclisinə seçkilər haqqında əsasnamənin qəbul edilməsi

d. Osmanlı ilə Batum müqaviləsinin imzalanması

e. AXC-nin Paris sülh konfransında de-fakto tanınması

A) 1-a, d; 2-b, e; 3-c

B) 1-b, d; 2-e; 3-a, c

C) 1-c, d; 2-b, e; 3-a

D) 1-d, e; 2-b, c; 3-a

E) 1-a, d; 2-b; 3-c, e

**16. Xronoloji ardıcıllığı müəyyən edin:**
1. TANAP-ın istismara verilməsi
2. İlk “DOST” mərkəzinin açılması
3. “ASAN” xidmət mərkəzlərinin açılmağa başlanması
4. “Şuşa bəyannaməsi”nin imzalanması
A) 3, 1, 2, 4
B) 4, 2, 1, 3
C) 1, 3, 2, 4
D) 2, 1, 4, 3
E) 2, 4, 1, 3

**17. Qeyd edilənlər aiddir:**

- Şuşanın görkəmli ziyalılarından olmuşdur
- Şuşada xəstəxana və məktəb açdırmışdı
- 1905-1906-cı illər qırğınları zamanı əhalinin özünümüdafiəsinin təşkilində fəal rol oynamışdır

A) S. M. Qənizadə
B) C. Məmmədquluzadə
C) Ə. Haqverdiyev
D) Ə. Ağayev
E) Ə. Mehmandarov

**18. Qeyd edilənlərin aid olduğu hökmdarı müəyyən edin:**

- Dulat əmirlərinin dəstəyi ilə taxta çıxmışdı
- 1433-1462-ci illərdə hakimiyyətdə olmuşdu
- Qardaşı Yunusla taxt uğrunda mübarizə aparmışdı

A) Esenboğa
B) Əbdürrəşid xan
C) Veysi xan
D) Tuğluq Teymur
E) İlyas Xoca

**19. Uyğunluğu müəyyən edin:**
1. Gövhər Qazıyeva
2. Şövkət Məmmədova
3. Ziba Qəniyeva
a. İlk qadın aktrisa olması
b. Stalinqrad uğrunda döyüşlərdə qəhrəmanlıq göstərməsi
c. İlk qadın opera mügənnisi olması
A) 1c, 2b, 3a
B) 1b, 2c, 3a
C) 1c, 2a, 3b
D) 1a, 2c, 3b
E) 1a, 2b, 3c

**20. Qeyd edilənlərdən neçəsi II Dünya müharibəsi illərində Azərbaycan SSR iqtisadiyyatına aiddir:**

- 1942-ci ilin əvvəlindən başlayaraq cəbhənin sifarişlərini yerinə yetirən təyyarə təmiri zavodu tikilmişdi
- Demokratik dəyərləri təbliğ edən qəzet və jurnallar nəşr olunmağa başlanmışdı
- Şəhər və kəndlərdə pulsuz məktəblər açılmağa başlanmışdı
- Sənayenin əsasını əl əməyinin üstünlük təşkil etdiyi xırda sənətkar emalatxanaları təşkil edirdi
- Bakıda 130 növ silah, sursat və başqa hərbi ləvazimat istehsal edilirdi
- Bakı müttəfiqlərin hərbi təyinatlı sursatlarının daşınması üçün mühüm quru və su nəqliyyat yolu idi
- Azərbaycan neft sənayesi 110 mln. ton neft hasil etmişdi

A) 2
B) 3
C) 4
D) 5
E) 6